**UDC:** 327
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 468
10.33864/2617-751X.2026.v9.i2.214-224

# MUTUAL APPROACHES IN THE FOREIGN POLICY CONCEPTS OF RUSSIA AND TURKEY IN THE CONTEXT OF GEOPOLITICAL REALITIES

**Sabina Mammadova***

**Abstract.** The history of relations between Russia and Turkey has always been based both on rivalry and cooperation. Although in regions such as the Middle East and the South Caucasus the political interests of both states have often clashed, in terms of economic cooperation, each side has shown a certain degree of flexibility towards the other. Despite being a member of NATO and the West’s tough stance against Russia, Turkey has continued to maintain its relations with Russia in parallel. We most recently witnessed this during the war in Ukraine. This very approach is also reflected in the foreign policy concepts adopted by both states. Thus, the political, economic, and military cooperation between the two countries has influenced the formation of their mutual approaches within their foreign policy concepts.

**Keywords:** Russia, Turkey, concept, foreign policy concept, South Caucasus, NATO

---

* PhD student at Azerbaijan University of Languages; Baku, Azerbaijan
E-mail: mammadovasabina35@gmail.com
https://orcid.org/0009-0000-4834-5524

**To cite this article:** Mammadova, S. [2026]. MUTUAL APPROACHES IN THE FOREIGN POLICY CONCEPTS OF RUSSIA AND TURKEY IN THE CONTEXT OF GEOPOLITICAL REALITIES. *“Metafizika” journal, 9*(2), pp.214-224.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.214-224
***Article history:***
**Received**: 11.12.2025 **Revised**: 05.01.2026 **Accepted**: 01.02.2026 **Published**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 327
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 468
10.33864/2617-751X.2026.v9.i2.214-224

# ВО ВНЕШНЕПОЛИТИЧЕСКИХ КОНЦЕПЦИЯХ РОССИИ И ТУРЦИИ ВЗАИМНЫЕ ПОДХОДЫ НА ФОНЕ ГЕОПОЛИТИЧЕСКИХ РЕАЛИЙ

**Сабина Мамедова***

**Абстракт.** История взаимоотношений между Россией и Турцией всегда основывалась как на соперничестве, так и на сотрудничестве. Несмотря на то, что в таких регионах, как Ближний Восток и Южный Кавказ, политические интересы обеих стран зачастую сталкивались, в плане экономического взаимодействия каждая из сторон проявляла определённую уступчивость по отношению друг к другу. Турция, входящая в состав НАТО, несмотря на жёсткую позицию Запада в отношении России, параллельно продолжала поддерживать связи с ней. Мы стали свидетелями этого в ходе последней войны в Украине. Именно такой подход отражается и в концепциях внешней политики обеих стран. Так, политическое, экономическое и военное сотрудничество двух государств оказало влияние на формирование взаимных подходов в их внешнеполитических концепциях.

**Ключевые слова:** Россия, Турция, концепция, концепция внешней политики, Южный Кавказ, НАТО

* Докторант Азербайджанского Университета Языков; Баку, Азербайджан
E-mail: mammadovasabina35@gmail.com
https://orcid.org/0009-0000-4834-5524

**Цитировать статью:** Мамедова, С. [2026]. ВО ВНЕШНЕПОЛИТИЧЕСКИХ КОНЦЕПЦИЯХ РОССИИ И ТУРЦИИ ВЗАИМНЫЕ ПОДХОДЫ НА ФОНЕ ГЕОПОЛИТИЧЕСКИХ РЕАЛИЙ. *Журнал «Metafizika», 9*(2), с.214-224.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.214-224
***История статьи:***
**Поступила**: 11.12.2025 **Переработана**: 05.01.2026 **Принята**: 01.02.2026 **Опубликована**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 327
**KBT:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 468
10.33864/2617-751X.2026.v9.i2.214-224

# GEOSİYASİ REALLIQLAR FONUNDA RUSİYA VƏ TÜRKİYƏNİN XARİCİ SİYASƏT KONSEPSİYALARINDA QARŞILIQLI YANAŞMALAR

**Səbinə Məmmədova***

**Abstrakt.** Rusiya və Türkiyə arasında münasibətlər tarix boyu həm rəqabət, həm də əməkdaşlığa söykənmişdir. Yaxın Şərq, Cənubi Qafqaz kimi regionlarda hər iki dövlətin mövcud siyasi maraqları hər nə qədər toqquşsa da, iqtisadi əməkdaşlıq baxımından hər iki tərəf bir-birinə qarşı bir o qədər də güzəştli yanaşma ortaya qoyublar. NATO cəbhəsinə daxil olan Türkiyə Qərbin Rusiyaya qarşı sərt mövqeyinə baxmayaraq, Rusiya ilə əlaqələri də paralel olaraq davam etmişdir. Biz bunun ən son Ukrayna müharibəsində şahidi olduq. Məhz bu yanaşma hər iki dövlətin qəbul etdiyi xarici siyasət konsepsiyalarında da özünü göstərir. Belə ki, iki dövlətin siyasi, iqtisadi və hərbi sahədə olan qarşılıqlı əməkdaşlığı onların xarici siyasət konsepsiyalarında da bir-birinə qarşı yanaşmaların formalaşmasına təsir etmişdir.

**Açar sözlər:** Rusiya, Türkiyə, konsepsiya, xarici siyasət konsepsiyası, Cənubi Qafqaz, NATO

* Azərbaycan Dillər Universitetinin doktorantı; Bakı, Azərbaycan
E-mail: mammadovasabina35@gmail.com
https://orcid.org/0009-0000-4834-5524
**Məqaləyə istinad:** Məmmədova, S. [2026]. GEOSİYASİ REALLIQLAR FONUNDA RUSİYA VƏ TÜRKİYƏNİN XARİCİ SİYASƏT KONSEPSİYALARINDA QARŞILIQLI YANAŞMALAR. *“Metafizika” jurnalı, 9*(2), səh.214-224.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.214-224
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 11.12.2025 **Yenidən baxılıb**: 05.01.2026 **Təsdiqlənib**: 01.02.2026 **Dərc olunub**: 15.06.2026
**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

XXI əsrdə beynəlxalq münasibətlər mürəkkəb geosiyasi reallıqlar çərçivəsində formalaşır və dövlətlərin xarici siyasət strategiyaları bu reallıqlardan ciddi şəkildə təsirlənir. Hər bir dövlətin xarici siyasəti onun fəaliyyətinin ən çətin sahələrindən biridir. Eyni zamanda, xarici siyasətin səmərəliliyi həlledici dərəcədə onun reallığından, məqsədyönlülüyündən və ardıcıllığından asılıdır. Bütün bu xüsusiyyətlər müvafiq doktrinaların, strategiyaların, konsepsiyaların və digər layihələrin hazırlanması mərhələsində müəyyən edilir. Məlumdur ki, dövlətin xarici siyasətinin konsepsiyaları onun rəhbərinin rəsmi xarici siyasət dəstəyidir.

Bu kontekstdə Rusiya və Türkiyə kimi regional və qlobal təsirə malik dövlətlərin qarşılıqlı münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Hər iki ölkə, tarixi əlaqələr və strateji maraqlar fonunda, həm əməkdaşlıq, həm də rəqabət prinsiplərinə əsaslanan xarici siyasət konsepsiyalarını inkişaf etdirir.

Rusiya və Türkiyə arasında əlaqələr uzun bir tarixə malikdir və müxtəlif dövrlərdə həm rəqabət, həm də əməkdaşlıq şəklində inkişaf etmişdir. Bu əlaqələr, xüsusilə XX əsrdə, hər iki ölkənin geosiyasi maraqlarının qarşılıqlı təsiri ilə formalaşmışdır.

Rusiya, öz xarici siyasət strategiyasında Avrasiya geosiyasi reallıqlarını nəzərə alaraq, regional təsir gücünü qorumağa və genişləndirməyə çalışır. Türkiyə isə qlobal və regional balans siyasətini prioritet hesab edərək, öz milli maraqlarını müdafiə etmək və diplomatik vasitəçilik imkanlarını genişləndirmək yönündə addımlar atır.

Son illərdə, xüsusilə Ukrayna müharibəsi və Suriya münaqişəsi fonunda, hər iki dövlətin qarşılıqlı yanaşmaları daha da mürəkkəbləşmiş və çoxşaxəli xarakter almışdır. Bu yanaşmalar həm enerji və iqtisadi əməkdaşlıq, həm də regional konfliktlərin idarə olunması, diplomatik arbitraj və strateji razılaşmalar kimi sahələrdə özünü göstərir.

Beləliklə, mövcud geosiyasi reallıqlar çərçivəsində Rusiya və Türkiyənin xarici siyasət konsepsiyalarında qarşılıqlı yanaşmaların öyrənilməsi, regional və qlobal təhlükəsizlik, iqtisadi inkişaf və diplomatik balansın dərin anlaşılmasına imkan yaradır.

## 2.Əsas hissə

Rusiya yeni xarici siyasət konsepsiyasında Qərbi əsas təhdid hesab etməsə də, özünü beynəlxalq səhnədə güclü mövqedə saxlamağı hədəfləyir. Məsələn, 2023-cü il martın 31-də Rusiya Federasiyası yeni “xarici siyasət konsepsiyası”nı təqdim etmişdir. Sənəddə Moskvanın qlobal prioritetləri və gələcək istiqamətləri öz əksini tapır. Kreml tərəfindən sonuncu analoji konsepsiya 2016-cı ildə – Ukraynanın işğalı və Krımın ilhaqından iki il sonra elan olunmuşdu. Həmin dövrdən bəri Rusiya beynəlxalq hüquqa əsaslanan qaydalar sistemi qarşısında artan etinasızlığını və ABŞ-la yanaşı onun Avropa

məkanındakı NATO müttəfiqlərinə qarşı düşmənçilik mövqeyini nümayiş etdirmişdir. 2023-cü il sənədi isə Rusiyanın 2022-ci ilin fevralında Ukraynaya hərbi müdaxiləsindən sonrakı ilk hərtərəfli xarici siyasət bəyanatı kimi diqqət çəkir. Bu konsepsiya Moskvanın müharibədən bir il sonra mövcud vəziyyətə yanaşmasını, habelə formalaşmaqda olan çoxqütblü dünya nizamı ilə bağlı strateji baxışını [13] əks etdirir

2023-cü il konsepsiyasında prezident Putin ABŞ-ın “anti-Rusiya xəttini” qeyd edir və Rusiyanın qonşu dövlətlərlə “mehriban qonşuluq” qurmağa çalışdığını vurğulayır [1]. Analitiklər bildirir ki, Rusiya konsepsiyası Türkiyəni birbaşa Avropa və NATO kontekstində deyil, “İslam dünyası” bölməsində təqdim etməklə NATO üzvlüyü gerçəkliyini ört-basdır etməyə çalışır [4]. Bu, Moskvanın Türkiyəni strateji tərəfdaş saysa da, onun NATO üzvü olduğu gerçəyini hesablamasıdır. Rəsmi mətndə isə ümumən Rusiya-Qərb münasibətlərində “Rusfobiya” ilə mübarizə, Çin, Hindistan və İslam dünyası ilə müsbət əlaqələr prioritetlərinə yer verilir [1]. Eyni zamanda, yeni konsepsiyada Rusiya Avrasiyanın vahid məkanına çevrilməsini “XXI əsrdə flaqman layihəsi” olaraq görür [1]. Qısaca desək, rus sənədlərində Türkiyə “müttəfiq” kimi təqdim edilir, lakin onun NATO üzvü olması strateji ziddiyyət [3] kimi rəsmən qabardılmır.

Türkiyənin strateji sənədlərində Rusiya uzunmüddətli işbirliyi tərəfdaşı kimi göstərilir. Rəsmi açıqlamalara görə, Türkiyə və Rusiya Federasiyası arasında münasibətlər köklü tarixi əsasa malikdir, iqtisadi əməkdaşlıq hər iki tərəfin inkişafında mühüm rol oynayır. Xarici İşlər Nazirliyinin məlumatına əsasən, Rusiya Türkiyənin əsas ticarət tərəfdaşlarından biridir və iki ölkə arasında ticarət həcmi 2019-cu ildə 26,3 milyard ABŞ dollarını ötüb (Türkiyə ixracı 3,85 milyard, Rusiyanın ixracı 22,45 milyard dollar). Energetika sahəsində də əməkdaşlıq vacib rol oynayır: Türk Axını Qaz Kəməri və Akkuyu nüvə AES layihəsi çərçivəsində Türkiyə-Rusiya enerji əlaqələri gücləndirilir [6]. Türkiyə rəsmi sənədlərində həmçinin şimal qonşusu olan Rusiyayla “dostluq və əməkdaşlıq” əlaqələrinin inkişafına üstünlük verir.

Digər tərəfdən, Türkiyənin təhlükəsizlik konsepsiyasında NATO sabitlik sütunu hesab olunur. Rəsmi mətndə 1952-ci ildə Türkiyənin NATO-ya daxil olması “milli müdafiə və təhlükəsizlik siyasətinin əsasını” təşkil etdiyi və Soyuq Müharibə dövründə cənub cəbhəsinin qorunmasına töhfə verdiyi vurğulanır [7]. Bu çərçivədə Ankara Qərb ittifaqına bağlılığını saxlayır, ancaq son illərdə Avrasiya istiqamətində yeni formalarda diplomatik təşəbbüslər (məs., Astana prosesi) ilə çoxistiqamətli siyasət yürüdür.

**2.1.Siyasi baxış**

Hər iki ölkə strategiyası qarşılıqlı münasibətlərdə həm əməkdaşlıq, həm də rəqabət faktlarını əhatə edir. Rusiya öz konsepsiyasında qonşularla mehriban münasibət qurmağı vurğulasa da, Türkiyə NATO çərçivəsindəki rolunu,

Qafqaz və Orta Şərqdə maraqlarını nəzərə alır. Ekspertlər qeyd edir ki, Moskvanın və Ankaranın xarici siyasətləri avtokratik idarəetmələrlə xarakterizə olunsa da, NATO kontekstində ziddiyyətlər mövcuddur: “Türkiyə NATO üzvüdür, Rusiya isə Atlantika İttifaqını inadkar düşmən kimi görür”. Məsələn, 2020-ci ildə Türkiyənin Azərbaycana hərbi dəstəyi Rusiyada nəzəriyyəni yenidən düşünməyə səbəb olmuş, Qafqazda maraqlar toqquşması açıqca görünmüşdür.

**2.2.Hərbi çərçivə**

Hərbi məsələlərdə qarşılıqlı yanaşma mürəkkəblidir. Suriya münaqişəsində Astana və Soçi formatlarında Rusiya və Türkiyə əməkdaşlıq edib, ancaq arxada qalmaqal da yaşanıb (məsələn, 2015-ci ildə Türkiyə Rusiyanın Suriya istiqamətində hərbi addımlarını qəbul etməyərək qırıcı təyyarəsini vurmuş, bu barədə Türkiyədə “Rusiyanın münasibəti qəbuledilməzdir” deyilib [8]. Digər tərəfdən, 2019-cu ildə Türkiyə Rusiya istehsalı S-400 raket sistemlərini aldıqdan sonra ABŞ-dan sanksiya almış, bu da Ankara-Moskva münasibətlərində ayrıca faktora çevrilib. Cəbhə xəttindən kənarda isə Türkiyə Montrö müqaviləsinə əsasən boğazları bağlayaraq Rusiya gəmilərinin Qara dənizə keçidini məhdudlaşdırıb və Ukraynanın Odessa limanının müdafiəsinə kömək edib [9]. Rəsmi sənədlərdə bu hərbi aspektlər adətən detallı qeyd olunmur, amma ekspertlər Türkiyənin risk-balans diplomatiyasını vurğulayır. Məsələn, Türkiyə Suriyada həm Bəşər Əsədlə, həm də ABŞ-la münaqişələr fonunda Astana prosesini işlədə bilib, bu isə “Suriya sindromu” kimi xarakterizə olunur.

**2.3.İqtisadi münasibətlər**

XXI əsrin əvvəlindən etibarən Rusiya–Türkiyə münasibətləri regional və qlobal səviyyədə yeni geosiyasi reallıqların təsiri altında formalaşmışdır. Bu münasibətlərin əsas dayaq nöqtəsini enerji, ticarət və turizm kimi sahələrdəki iqtisadi əməkdaşlıq təşkil etsə də, paralel şəkildə tərəflər arasında ciddi geosiyasi rəqabət də mövcuddur. “TürkAxını” qaz kəməri və “Akkuyu” Atom Elektrik Stansiyası kimi strateji layihələr Türkiyənin enerji təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, Moskva ilə Ankaranın qarşılıqlı asılılığını da dərinləşdirmişdir.

İqtisadi əməkdaşlıq rəsmən strateji prioritet kimi səciyyələndirilir. Türkiyə-Kremlin açıqlamalarına görə, iqtisadi-ticarət əlaqələri ikitərəfli münasibətlərin «hərəkətverici qüvvəsini» təşkil edir. Həqiqətən də, hər iki tərəf geniş investisiya və layihələr aparır, Türkiyə podratçıları Rusiyada 75,7 milyard dollardan çox layihə həyata keçirib, qarşılıqlı investisiyalar təxminən 10 milyard dollar səviyyəsindədir. Enerji sahəsində əməkdaşlıq xüsusilə ciddi əhəmiyyət daşıyır – rus qazının böyük hissəsi Türkiyəyə Türksream boru kəməri vasitəsilə çatdırılır, Akkuyu AES-in tikintisi irəliləyir [6]. Ekspertlər isə bu iqtisadi münasibətlərin asimmetrik olduğunu qeyd edirlər: Türkiyənin

Rusiya ilə ticarət defisiti böyükdür və Rusiya Türkiyəni Qərb sanksiyalarını əngəlləyən həm tərəfdaş, həm də "müştəri" kimi görür. Məsələn, 2021–2023-cü illərdə Türkiyənin Rusiyaya ixracı artarkən, bu artım Rusiyanın Avropa ilə ticarətinin azalmasına bağlı olub və Türkiyə ilə asılılığını gücləndirib.

**2.4.Regional əməkdaşlıq və rəqabət (Suriya, Qafqaz, Qara dəniz)**

Suriyada ikitərəfli əməkdaşlıq modelləri yaradılıb, lakin tədricən rəqabət də ortaya çıxır. Məsələn, keçmiş NATO-nun "sərt" siyasət yürüdüyü münaqişədə Ankara və Moskva Astana formatında razılığa gələrək birgə müşahidə postları qurdu, ancaq eyni zamanda münaqişənin son nəticəsini fərqli görürlər. Ekspertlər vurğulayır ki, "Suriya Türkiyə-Rusiya münasibətlərinin mərkəzidir" – bu konfliktdə çətin balans, gərgin əməkdaşlıq və qarşılıqlı təsir nümunəsi yaranıb .

Cənubi Qafqazda da əməkdaşlıq və rəqabət paraleldir. 2020-ci ildə Ermənistan-Azərbaycan müharibəsində Türkiyə Azərbaycanı açıq dəstəkləyərkən (Rusiya isə sülhü qorumağa çalışırdı), iki ölkə bir nömrəli iştirakı balanslaşdırdı [10]. Bu, Bakıda Azərbaycan-Türkiyə-Rusiya üçtərəfli görüşləri yaradılmasına gətirib çıxardı, lakin regionda hər bir tərəf öz strateji təsirini saxlamağa çalışır. Məsələn, Türkiyə hərbi və diplomatik vasitələrlə bölgədə rolunu artırmağa çalışır, rusiyalı analitiklər isə Bakıda Ankaranın "güç nümayişini" müşahidə edərək münasibətləri yenidən qiymətləndirməyə məcbur olmuşdu.

Qara dənizdə vəziyyət xüsusilə mürəkkəbdir. Türkiyə Montrö müqaviləsinə görə İstanbul boğazlarını Rusiyaya qismən bağlı saxladı və Ukrayna limanlarına kömək etdi [9]. Eyni zamanda, iki ölkə strateji tərəfdaş kimi enerji layihələrində əməkdaşlıq edir, lakin Rusiya Ukraynaya qarşı hücumlarını davam etdirərkən Ankara rəsmi olaraq əks tədbirlər görmədi (məsələn, Qərb sanksiyalarını tam dəstəkləməkdən imtina etdi), özü də Vaşinqtonun sərt reaksiyası ərəfəsində öz hərəkətlərini məhdudlaşdırmağa çalışdı. Regionda Türkiyə həm NATO-Dəniz qüvvələri müttəfiqləri ilə birgə minalardan təmizləmə qüvvəsi yaratdı [11], həm də Rusiyayla enerji və iqtisadi əməkdaşlığını davam etdirdi.

**2.5.NATO və Avrasiya strukturları**

Rusiya konsepsiyasında NATO açıq düşmən kimi tanınır. Yeni konsepsiyada ABŞ və "Anglo-Sakson" dövlətləri Moskvanın əsas rəqibləri sayılır [1]. Bu çərçivədə Türkiyə gizli şəkildə NATO düşərgəsinə aid edilmədən, İslam dünyası ilə əlaqələrin daxilində göstərilir.

Türkiyə tərəfdən isə NATO-nun əhəmiyyəti vurğulanır [7]. Türkiyə yeddi onillikdən artıq müddətdir ki, NATO-nun müttəfiqidir. Türkiyəli rəsmilər bu irs ilə tez-tez fəxr edir və ölkənin alyansa davamlı töhfələrini önə çəkirlər. Bununla belə, Türkiyənin də imzaladığı NATO sənədlərində Rusiya "Müttəfiqlərin təhlükəsizliyinə ən ciddi və birbaşa təhdid" kimi xarakterizə

olunur. Belə bir fon qarşısında, Türkiyənin Rusiyadan S-400 hava və raketdən müdafiə sistemini alması, habelə enerji sahəsində mövcud geniş əməkdaşlığı nüvə sferasına qədər genişləndirmək qərarı [14] açıq şəkildə uyğunsuzluq yaradır.

Son illərdə Ankara öz strateji müstəqilliyini genişləndirmək məqsədilə BRICS, Şimal-Cənub dəhlizi, Avrasiya İqtisadi Birliyi kimi strukturlarla əlaqələrə maraq göstərir. Məsələn, 2024-cü ildə Türkiyə BRICS-ə üzvlük üçün müraciət edib ki, bu, ekspertlərin fikrincə, NATO ilə bağlı manevr imkanlarını artırmaq cəhdi kimi dəyərləndirilir [12]. Beləliklə, rəsmi sənədlərdə təhlükəsizlik baxımından Türkiyə NATO çərçivəsində təsvir edilir, lakin diplomatik bəyanatlar və ekspert rəyləri Ankaranın həm Qərbə, həm də Rusiya mərkəzli sferalara paralel inteqrasiya strategiyası götürdüyünü göstərir.

Türkiyə və Rusiyanın böyük strategiyalarını araşdırdığımızda görürük ki, hər iki ölkə mövcud beynəlxalq nizamdan narazıdır və buna uyğun olaraq milli təhlükəsizlik problemləri ilə təkbaşına üz-üzə qalır. Bu baxımdan demək olar ki, hər iki ölkə özləri üçün müəyyənləşdirdikləri roldan irəli gələrək yeni dünya nizamı axtarışındadır. Nizam-mərkəzli məntiq iki ölkənin bir-biri ilə bağlı yaşadıqları təhlükəsizlik dilemmasını müəyyən dərəcədə azalda bilər. Bu perspektiv onu göstərir ki, dövlətlərin seçimləri sıfır məbləğli oyunla məhdudlaşmaya bilər; məsələn, əgər təhlükəsizlik dilemması yaşayan iki dövlət beynəlxalq nizam yaratmaq üçün seçimlər etsələr, dövlətlərin səlahiyyətli şəxsləri arasında qarşılıqlı anlaşma təhlükəsizlik dilemmasını yumşalda bilər.

Yuxarıda qeyd edilən nizam fenomeninin beynəlxalq təsir gücünə malik olduğunu qəbul etməklə yanaşı, deməliyik ki, bu, həm də regional ölçüdə axtarış məsələsidir. Beynəlxalq arenada Birləşmiş Ştatların münaqişə zonalarından kənarlaşdırılmasını təmin etmək üçün (bu, Rusiya aüçün çox vacibdir) Türkiyə ilə rəqabət və eyni zamanda uzlaşma vəziyyətində olmaq daha məntiqli görünür. Digər tərəfdən, Türkiyənin öz milli maraqları və beynəlxalq arenada strateji muxtariyyət axtarışında praqmatik yanaşmaları Rusiya ilə əməkdaşlıq vasitəsilə həyata keçirilə bilər.

Bu baxımdan, nizam qurulmasına yönəlmiş hər bir addım sözügedən “ağıllı uzlaşmanın” və onunla yanaşı mövcud olan “elastik rəqabətin” bir hissəsidir [15]. Başqa sözlə, beynəlxalq sistemin struktur dəyişikliyi və ya transformasiya prosesi gedişində Rusiya Türkiyəni beynəlxalq arenada öz təsirini artırmaq üçün faydalı bir vasitə kimi görürsə, Türkiyə də Rusiyanı strateji muxtariyyətini gücləndirmək üçün istifadə edə biləcəyi bir balans elementi kimi görür.

**3.Nəticə**

Rusiya və Türkiyənin strateji sənədlərində qarşılıqlı münasibətlər həm əməkdaşlıq, həm də rəqabət prizmasından təqdim edilir. Rəsmi Rusiya

doktrinaları qonşularla mehriban siyasətə üstünlük versə də, Türkiyəni NATO çərçivəsində gizlətməklə kompleks münasibəti ört-basdır edir. Türk sənədlərində isə Rusiya əsas tərəfdaş kimi göstərilir; bununla yanaşı, NATO önəmi açıqlanır və Türkiyənin Avrasiya inteqrasiyasına meyli səslənir. Real siyasətdə isə Suriyada, Qafqazda və Qara dənizdə lazımi balansı qorumağa çalışan iki ölkə arasında əməkdaşlıqla yanaşı, mənfəət və nüfuz uğrunda rəqabət də davam edir. Mənbələr göstərir ki, münasibətlər dərin iqtisadi-ticarət əlaqələr və müəyyən siyasi dialoq fonunda formalaşsa da, hər iki tərəfin baxış bucağı tam üst-üstə düşmür və regional kontekstdə dəyişkən geosiyasi reallıqlar əsasında sintez edilir.

## 4.ƏDƏBİYYAT


1. Oxu.az. (2023). *Rusiya xarici siyasətinin yeni konsepsiyası təsdiqləndi*. Alındı https://oxu.az/dunya/rusiya-xarici-siyasetinin-yeni-konsepsiyasi-tesdiqlendi
2. Məlikova, Z. (2023). Rusiyanın 2023-cü il Xarici siyasət konsepsiyasında Yaxın Şərq və Cənubi Qafqaz regionları. *Geostrategiya №5 (77), 5-10.* https://www.geostrategiya.az/pdf/2023/0577.pdf
3. Baev, P. K. (2025). *Russia recalibrates its aims in strategic partnership with Turkey*. Transatlantic Leadership Network, 10 p. Retrieved from https://www.transatlantic.org/wp-content/uploads/2025/05/TLN-RSI-Turkey-Policy-Paper-Baev.pdf
4. Baev, P. (2021). *Russia and Turkey: Strategic partners and rivals*. Ifri. Retrieved from http://www.ifri.org/en/studies/russia-and-turkey-strategic-partners-and-rivals
5. Ministry of Foreign Affairs of the Republic of Turkiye. (n.d.). *Relations between Türkiye and the Russian Federation*. Retrieved from https://www.mfa.gov.tr/relations-between-turkey-and-the-russian-federation.en.mfa
6. Ministry of Foreign Affairs of the Republic of Türkiye. (n.d.). *Türkiye's perspectives and policies on security issues*. Retrieved from https://www.mfa.gov.tr/i_-turkiye_s-security-perspective_-historical-and-conceptual-background_-turkiye_s-contributions.en.mfa
7. Milli Təhlükəsizlik Şurası (MGK). (2015). *18 Aralık 2015 Tarihli Toplantı*. Alındı https://www.mgk.gov.tr/index.php/kurumsal/mevzuat/35-kurumsal/giris-sayfalari
8. Ülgen, S. (2024). *Türkiye and Russia: An unequal partnership*. Carnegie Endowment for International Peace. Retrieved from https://carnegieendowment.org/research/2024/10/turkiye-and-russia-an-unequal-partnership?lang=en

9. Dalay, G. (2021). Turkish-Russian Relations in Light of Recent Conflicts: Syria, Libya, and Nagorno-Karabakh. *SWP Research Paper* 2021/RP 05. http://doi.org/10.18449/2021RP05
10. Colibasanu, A. (2024). *Turkey's evolving geopolitical strategy in the Black Sea*. Foreign Policy Research Institute (FPRI). Retrieved from https://www.fpri.org/article/2024/12/turkeys-evolving-geopolitical-strategy-in-the-black-sea/
11. Muxtar-Agbabali, F. (2024). *Q&A: Turkey's BRICS bid – Strategic moves and implications for NATO ties*. Eurasia Review. Retrieved from https://www.eurasiareview.com/09092024-qa-turkeys-brics-bid-strategic-moves-and-implications-for-nato-ties/
12. United States Institute of Peace. (2023). *USIP Hosts President Trump and the Board of Peace*. Retrieved from https://www.usip.org/publications/2023/05/what-you-need-know-about-russias-new-foreign-policy-concept
13. Coşkun, A., Gabuev, A., Pierini, M., Siccardi, F., & Umarov, T. (2024). *Understanding Türkiye's Entanglement With Russia.* Carnegie Endowment for International Peace. Retrieved from https://carnegieendowment.org/research/2024/10/understanding-turkiyes-entanglement-with-russia
14. Zengin, A. K., & Topsakal, İ. (2021). The intersection of grand strategies in Turkey-Russia relations: Reflections of smart alignment and flexible competition in the international arena. *Insight Turkey, 23*(4), 147-168. http://doi.org/10.25253/99.2021234.9

## REFERENCES

1. Oxu.az. (2023). *Russia's new foreign policy concept approved*. Retrieved from https://oxu.az/dunya/rusiya-xarici-siyasetinin-yeni-konsepsiyasi-tesdiqlendi (in Azerbaijani)
2. Malikova, Z. (2023). Russia's 2023 foreign policy concept and the Middle East and South Caucasus regions. *Geostrategiya, 5*(77), 5–10. Retrieved from https://www.geostrategiya.az/pdf/2023/0577.pdf (in Azerbaijani)
3. Baev, P. K. (2025). *Russia recalibrates its aims in strategic partnership with Turkey*. Transatlantic Leadership Network, 10 p. Retrieved from https://www.transatlantic.org/wp-content/uploads/2025/05/TLN-RSI-Turkey-Policy-Paper-Baev.pdf (in English)
4. Baev, P. (2021). *Russia and Turkey: Strategic partners and rivals*. Ifri. Retrieved from http://www.ifri.org/en/studies/russia-and-turkey-strategic-partners-and-rivals (in English)
5. Ministry of Foreign Affairs of the Republic of Turkiye. (n.d.). *Relations between Turkiye and the Russian Federation*. Retrieved from

https://www.mfa.gov.tr/relations-between-turkey-and-the-russian-federation.en.mfa (in English)

6. Ministry of Foreign Affairs of the Republic of Turkiye. (n.d.). *Turkiye's perspectives and policies on security issues*. Retrieved from https://www.mfa.gov.tr/i_-turkiye_s-security-perspective_-historical-and-conceptual-background_-turkiye_s-contributions.en.mfa (in English)
7. National Security Council (MGK). (2015). *Meeting dated 18 December 2015*. Retrieved from https://www.mgk.gov.tr/index.php/kurumsal/mevzuat/35-kurumsal/giris-sayfalari (in Turkish)
8. Ulgen, S. (2024). *Turkiye and Russia: An unequal partnership*. Carnegie Endowment for International Peace. Retrieved from https://carnegieendowment.org/research/2024/10/turkiye-and-russia-an-unequal-partnership?lang=en (in English)
9. Dalay, G. (2021). Turkish-Russian relations in light of recent conflicts: Syria, Libya, and Nagorno-Karabakh. *SWP Research Paper* 2021/RP 05. https://doi.org/10.18449/2021RP05 (in English)
10. Colibasanu, A. (2024). *Turkey's evolving geopolitical strategy in the Black Sea*. Foreign Policy Research Institute (FPRI). Retrieved from https://www.fpri.org/article/2024/12/turkeys-evolving-geopolitical-strategy-in-the-black-sea/ (in English)
11. Muxtar-Agbabali, F. (2024). *Q&A: Turkey's BRICS bid – Strategic moves and implications for NATO ties*. Eurasia Review. Retrieved from https://www.eurasiareview.com/09092024-qa-turkeys-brics-bid-strategic-moves-and-implications-for-nato-ties/ (in English)
12. United States Institute of Peace. (2023). *USIP Hosts President Trump and the Board of Peace*. Retrieved from https://www.usip.org/publications/2023/05/what-you-need-know-about-russias-new-foreign-policy-concept (in English)
13. Coskun, A., Gabuev, A., Pierini, M., Siccardi, F., & Umarov, T. (2024). *Understanding Turkiye's entanglement with Russia*. Carnegie Endowment for International Peace. Retrieved from https://carnegieendowment.org/research/2024/10/understanding-turkiyes-entanglement-with-russia (in English)
14. Zengin, A. K., & Topsakal, I. (2021). The intersection of grand strategies in Turkey-Russia relations: Reflections of smart alignment and flexible competition in the international arena. *Insight Turkey*, *23*(4), 147–168. (in English)